**İş № 1-1(103)-01**

Bakı Apellyasiya Məhkəməsinin
apellyasiya şikayətinə və ya apellyasiya protestinə
məhkəmə baxışının yekun

# Q Ə R A R I

**« 06 » fevral 2008-ci il** **Bakı şəhəri**

Bakı Apellyasiya Məhkəməsinin hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyası aşağıdakı tərkibdə;

Sədrlik edən – Seyfəliyev Əli Səlim oğlu,

Hakimlər – Mirzəyev Sahibxan Arzuman oğlu (məruzəçi) və Nəbiyev Etibar Qəzənfər oğlu,

Katib-Qasımov Kamal Məharət oğlu,

Dövlət ittihamçısı - Azərbaycan Respublikası Baş Prokurorluğunun dövlət ittihamının müdafiəsi üzrə idarəsinin prokuroru İsmayılov Rahil Əliş oğlu,

Müdafiəçi–Bakı şəhəri 01 saylı hüquq məsləhətxanasının vəkili Cahangirov Mirələm Səmidxan oğlunun iştirakları ilə açıq məhkəmə iclasında Atayev Tural Cambul oğlunun Azərbaycan Respublikası CM-nin 128 və 331.2-ci maddələri və Dünyamalıyev Hikmət Abdulla oğlunun Azərbaycan Respublikası CM-nin 330.1-ci maddəsi ilə məhkum olunmalarına dair cinayət işi üzrə Bakı Hərbi Məhkəməsinin 17 dekabr 2007-ci il tarixli hökmündən məhkum H.Dünyamalıyevin müdafiəçisi M.Cahangirov tərəfindən verilmiş apellyasiya şikayətinə baxaraq-

# M Ü Ə Y Y Ə N  E T D İ:

Bakı Hərbi Məhkəməsinin 17 dekabr 2007-ci il tarixli hökmü ilə(sədrlik edən S.B.Hüseynov)

**N-saylı hərbi hissənin əsgəri Hikmət Abdulla oğlu Dünyamalıyev-**06 mart 1987-ci ildə Dəvəçi şəhərində anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, orta ixtisas təhsilli, subay, əvvəllər məhkum olunmamış, Dəvəçi şəhəri, H.Əliyev küçəsi ev 1, mənzil 57-də qeydiyyatda olan, barəsində komandanlığın müşahidəsi altına verməqətimkan tədbiri seçilmiş-

Azərbaycan Respublikası CM-nin 330.1-ci maddəsi ilə təqsirli bilinib, 06(alıt) ay müddətinə intizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum edilmişdir.

Məhkəmənin hökmünə əsasən, Dünyamalıyev Hikmət Abdulla oğlu 15 sentyabr 2007-ci il tarixdə, saat 09 radələrində N-saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətdə olarkən, park təsərrüfat günü hərbi hissənin ərazisində təmizlik işləri apararkən, onun üçün rəis hesab olunan manqa komandiri əsgər Atayev Tural Cambul oğlunun hərbi xidmət üzrə öz vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar ərazini yığışdırmasına dair verdiyi göstərişini yerinə yetirmədiyinə görə aralarında baş vermiş mübahisə zəmnində, yerdən daş götürərək onunla T.C.Atayevin baş nahiyyəsinə iki dəfə zərbə vuraraq, sağ almacıq-gicgah nahiyyəsində şişkinlik və qançır, sağ diz oynağının bayır səthində qançır, alt çənədə sağda, sol yanaq nahiyyəsində və sol qaşda, boyunun sol yan səthind, sağ dirsək oynağının arxa səthində və sağ saidin aşağı 1/3-də sıyrıqlar kimi səhhətin qısa müddətə pozulmasına səbəb olan, sağlamlığa yüngül zərər vuran bədən xəsarətləri yetirmişdir.

Hökmdən müdafiəçi M.Cahangirov apellyasiya şikayəti verərək, Bakı Hərbi Məhkəməsinin 17 dekabr 2007-ci il tarixli hökmünün məhkum H.Dünyamalıyevə aid hissəsinin dəyişdirilməsini və onun barəsində Azərbaycan Respublikası CM-nin 62 və 70-ci maddələrinin tətbiq edilərək, ona həbslə əlaqədar olmayan cəza təyin edilməsi barədə qərar çıxarmasını məhkəmə kollegiyasından xahiş etmişdir.

Müdafiəçi apellyasiya şikayətini onunla əsaslandırmışdır ki, birinci instansiya məhkəməsi məhkum H.Dünyamalıyevin barəsində cəza təyin edərkən, cəza təyin etmənin ümumi prisiplərinə kifayət qədər əməl etməmiş və onun barəsində həddindən artıq ağır cəza təyin etmiş və hökmdə məhkum H.Dünyamalıyevin barəsində Azərbaycan Respublikası CM-nin 62 və 70-ci maddələrinin tətbiqi məsələsini müzakirə etməmişdir. Müdafiəçi həmçinin məhkum H.Dünyamalıyevin törətdiyi cinayətin ictimai təhlükəlilik dərəcəsini, onun şəxsiyətini, ailə vəziyyətini, zərərçəkmiş şəxslə barışıq əldə etməsini və onun qanunla müəyyən edilmiş hərbi xidmət müddətinin artıq başa çatdığını, həmçinin əməlində ağırlaşdırıcı halların olmamasını nəzərə alaraq, barəsində Azərbaycan Respublikası CM-nin 62 və 70-cimaddələrinin tətbiq edilərək, ona təyin edilmiş cəzanın şərti olaraq tətbiq olunmasının mümkün olduğunu göstərmişdir.

Məhkum H.A.Dünyamalıyevin əməlinin hüquqi tövsifi məsələsi apellyasiya şikaytində mübahisə edilmir.

İş üzrə digər məhkum T.C.Atayevin barəsində hökmdən apellyasiya şikayəti və apellyasiya protesti verilməmişdir.

Bakı Apellyasiya Məhkəməsinin hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyası cinayət işinin materiallarını araşdırıb, apellyasiya şikayətinin dəlillərini müzakirə edərək, apellyasiya şikayətinin təmin olunması barədə məhkumlar və müdafiəçisinin fikirlərini, həmçinin apellyasiya şikayətinin təmin edilməməsi haqda dövlət itithamçısının çıxışını dinləyib hesab edir ki, aşağıdakı əsaslara görə apellyasiya şikayəti qismən təmin edilməli, Bakı Hərbi Məhkəməsinin 17 dekabr 2007-ci il tarixli hökmü isə dəyişdirilməlidir.

Məhkum H.Dünyamalıyevin törətdiyi cinayət əməli onun özünün həm ibtidai istintaq, həm də məhkəmə istintaqı zamanı verdiyi etirafedici ifadələri ilə yanaşı, zərərçəkmiş və şahidlərin ifadələri, ekspert rəyləri, habelə iş materiallarında olan digər sübutlarla tam təsdiq edilir

Ona görə də məhkəmə kollegiyası hesab edir ki, məhkum H.Dünyamalıyevin törətdiyi cinayət əməli Azərbaycan Respublikası CM-nin 330.1-ci maddəsi ilə həm ibtidai istintaq, həm də birinci instansiya məhkəməsi tərəfindən düzgün tövsif edilmişdir.

Hökmdən görünür ki, birinci instansiya məhkəməsi məhkum H.Dünyamalıyevin barəsində cəza təyin edərkən, onun əməlində məsuliyyəti ağırlaşdıran halların olmamasını, əksinə kifayət qədər cəzanı yüngülləşdirən halların olmasına baxmayaraq, məhkuma təqsirli bilindiyi maddənin sanksiyasında nəzərdə tutulmuş aşağı həddən də az cəza təyin ediməsini nəzərdə tutan Azərbaycan Respublikası CM-nin 62-ci maddəsinin və ya onun barəsində təyin edilmiş cəzanın sınaq müddəti müəyyən edilməklə şərti olaraq tətbiq edilməsini nəzərdə tutan, həmin Məcəllənin 70-ci maddəsinin tətbiqinin təyin edilərək, cəzanın məqsədinə nail oluna bilməsinin mümkünlüyünü müzakirə etməmişdir.

Cinayət işinin materiallarında məhkum H.Dünyamalıyevin ilk dəfə böyük ictimai təhlükə törətməyən cinayət əməlini törətməsi, əməlini etiraf etməklə ondan səmimi peşmançılıq çəkməsini, xidmət müddətində müsbət xarakterizə olunmasını, qanunla müəyyən edilmiş xidmətdən artıq qulluq etməsini, zərərçəkmiş şəxslə barışıq əldə etməsini və ailə vəziyyətinin ağır olması kimi cəzasını yüngülləşdirən halların olmasına və əməlində cəzanı ağırlaşdıran hər hansı halın olmamasına baxmayaraq, son nəticədə Azərbaycan Respublikası CM-nin 58.3 və 59.2-ci maddəsinin tələblərinə uyğun olaraq, təqsirləndirilən şəxsin barəsində Azərbaycan Respublikası CM-nin 70-ci maddəsinin tətbiq edilib-edilməməsinin mümkünlüyünü müzakirə etmədən birinci instansiya məhkəməsi ona maddənin sanksiyasının aşağı həddində cəza təyin etməklə kifayətlənmişdir.

Azərbaycan Respublikası CM-nın 41.2-ci maddəsinin tələblərinə əsasən, cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədilə tətbiq edilir.

Cəzanın təyin edilməsinin ümumi əsaslarını özündə əks etdirən CM-nin 58.3-cü maddəsinin tələblərindən görünür ki, cəza təyin edilərkən törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirkarın şəxsiyyəti, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar, habelə təyin olunmuş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsiri nəzərə alınır.

Azərbaycan Respublikası CM-nin 59.2-ci maddəsinin müddəalarından göründüyü kimi, cəza təyin edilərkən bu Məcəllənin 59.1.1-59.1.10-cu maddələrində göstərilməmiş başqa hallar da cəzanı yüngülləşdirən hal qismində nəzərə alına bilər.

Azərbaycan Respublikası CM-nin 70.1-ci maddəsinin tələblərindən görünür ki, islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, intizam xarakterli hərbi hissədə saxlama, azadlığın məhdudlaşdırılması və ya müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası təyin edən məhkəmə, məhkumun cəza çəkmədən islah olunmasını mümkün sayırsa, həmin cəzanın şərti olaraq tətbiq edilməsi haqqında qərar çıxara bilər.

Məhkəmə kollegiyası apellyasiya şikayəti müəllifinin dəlillərini müzakirə edib, cinayət qanunu normalarının yuxarıda göstərilən tələblərinə əsaslanaraq və şikayətdə göstərilən, iş materialları ilə müəyyən olunmuş həm yuxarıdakı halları, həm də məhkum H.Dünyamalıyevin zərər çəkmiş şəxslə barışdıqdan sonra onunla dostluq münasibətlərində olmasını, hazırda qanunla müəyyən edilmiş xidmət müddətini başa vurmasını, zərərçəkmiş T.Aatayevin də təkidlə apellyasiya şikayətinin təmin edilməsi barədə məhkəmə kollegiyasına etdiyi müraciətini, məhkumun istər cinayəti törətməzdən əvvəl, istərsə də sonrakı dövrdə heç bir intizam pozuntusuna yol verməməsini cəzanı yüngülləşdirən hallar kimi qiymətləndirib bu halları da nəzərə alaraq onun cəmiyyətdən təcrid olunmadan islah və tərbiyə oluna biləcəyi qənaətinə gəlir, buna görə də onun barəsində Azərbaycan Respublikası CM-nin 70-ci maddəsinin tətbiq edilərək, ona təyin olunmuş cəzanın şərti hesab edilməsini ədalətli hesab edir və bununla da apellyasiya şikayətini qismən təmin etməklə Bakı Hərbi Məhkəməsinin 17 oktyabr 2007-ci il tarixli hökmünün dəyişdirilməsini mümkün bilir.

Bakı Apellyasiya Məhkəməsinin hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyası şərh olunanları və Azərbaycan Respublikası CPM-nin 397.1, 397.2, 398.1.4, 399.1.5, 404 və 405.1.1-ci maddələrini rəhbər tutaraq-

# Q Ə R A R A  A L D I:

Apellyasiya şikayəti qismən təmin edilsin.

Bakı Hərbi Məhkəməsinin Atayev Tural Cambul oğlu və Dünyamalıyev Hikmət Abdulla oğlu haqqındakı 17 dekabr 2007-ci il tarixli hökmü dəyişdirilsin.

Məhkum H.A.Dünyamalıyevə Azərbaycan Respublikası CM-nin 330.1-ci maddəsi ilə təyin edilmiş 06(altı) ay müddətə intizam xarakterli hərbi hissədə saxlama cəzası, həmin Məcəllənin 70-ci maddəsi tətbiq edilməklə şərti olaraq tətbiq edilsin və məhkum H.A.Dünyamalıyevin üzərində 06(altı) ay sınaq müddəti müəyyən olunsun.

Azərbaycan Respublikası CM-nin 70.6-cı maddəsinin tələblərinə müvafiq olaraq, məhkum H.A.Dünyamalıyevin davranışı üzərində nəzarətin həyata keçirilməsi hərbi xidmətdə olduğu müddətdə qulluq etdiyi hərbi hissənin komandanlığına, hərbi xidmətdən təxris edildikdən sonrakı müddətdə isə onun yaşayış yeri üzrə Məhkəmə Nəzarətçiləri və Məhkəmə İcraçıları şöbəsinə həvalə olunsun.

Hökmün qalan hissəsi dəyişdirilmədən saxlanılsın.

Qərar elan olunduğu andan qanuni qüvvəyə minir.

Qərardan Azərbaycan Respublikası Ali Məhkəməsinə kassasiya qaydasında şikayət və ya protest verilə bilər.